# HAMLET İSAXANLI - 65: "ÇAYIM SOYUDU..."

Bu gün riyaziyyatçı alim, fizika-riyaziyyat elmləri doktoru, professor, Xəzər Universitetinin təsisçisi və keçmiş rektoru Hamlet İsaxanlının doğum günüdür. **Modern.az** səbəbkarla əlaqə saxlayaraq doğum gününü təbrik edib və ad günü təəssüratını öyrənib.

**– 65 yaşınızın olduğuna heç cür inanmaq olmur Hamlet müəllim...**



– Mən də inanmıram. Sanki heç bir ciddi fərq nəzərə çarpmır. Elə bil ki, 30 il bundan əvvəlki adamam. Yaş sözdür, daha doğrusu rəqəmdir. Əsas olan, yəqin ki, adamın özünü necə hiss etməsidir.

**– Bu gün yuxudan durub ayna qarşısına keçəndə 65 yaşın kürəyini yerə vuran insan kimi ilk təəssüratınız nə oldu**?

– Gördüm ki, hər şey normaldır, hər şey yaxşıdır, dünənki və ya keçən ilki kimidir. Özümdə heç bir mənəvi boşluq və cismani zəiflik hiss etmədim. Elə bil ki, heç nə olmayıb. Həmişəki kimi yazırıq, pozuruq, işləyirik.

**– Kimlərdən nə kimi hədiyyələr və təbriklər gözləyirsiniz?**

– Bu şeylərdən çox danışmaqdan xoşum gəlmir, mənim üçün doğum günü çox adi günlərdən biridir. Ona görə də heç bir təntənə və hay-küyə yol vermirəm, xüsusi mərasim planlaşdırmıram.

**– 65 yaşlı insanı qoca hesab etmək olar, yoxsa bu hər bir insanın xarakterindən asılıdır**?

– Şübhəsiz ki, fərdi hiss əsasdır, özünü hiss psixologiyası insanın xarakterindən, tipindən asılıdır.

**– Hansı yaş dövri üçün darıxırsınız?**

– Heç nə üçün darıxmıram, hər şey təbii yolla gedir. Adamın təbiəti nədirsə, nə işlə məşğul olursa, o yolu davam etdirir, yeni bir şeylər yaratmaq, yeni hisslər keçirmək istəyir. Müxtəlif yaşlarda bunlar arasında çox da böyük, dəhşətli fərq olmur. Əgər sən əldən düşməyibsənsə, çox yorğun deyilsənsə, əvvəlki kimisənsə, təbiətcə eynisənsə dövrlər arasında ciddi bir fərq yoxdur.

**– Bəs elmə necə, 65 yaş kifayət edirmi, istədiyiniz kimi elmə ayırmağa vaxt tapdınızmı?**

– Vallah heç nə üçün heç nə kifayət etmir. İnsan həyatını yaşayır. İşinə başı qarışır, həyatını yaşamaqla, mümkün qədər maraqlı yaşamaqla məşğuldur. Maraqlı işə, yeniliklə dolu işə nə diqqət, nə də həvəs, ehtiras azalır. 100 və ya 30 yaşında da olsa, insan enerji ilə doludursa, öz sevdiyi işlə məşğuldursa, yaşın böyük rolu olmur.

**– Deyirlər ki, kişinin yaşı var-dövlətidir. Amma hamımız insanıq və yaş artdıqca ola bilməz ki, hər bir insanın ürəyindən cüzi də olsa, bir qorxu keçməsin?**

– Mən qorxu haqqında düşünmürəm. Çünki o şeylər ki, bizdən asılı deyil, mütləq baş verəcək (ölüm kimi), onun haqqında düşünməyə, dərd çəkməyə dəyməz. O şeylər ki bizim özümüzdən asılıdır, yəni necə, nə cür yaşamaq, sevdiyimiz işlə məşğul olmaq, Çalışaq ki, onlar yaxşı olsun. Bu səbəbdən siz deyən yaş barədə mən xüsusi kədərli düşüncələrə dalmıram.

**P.S.** Hörmətli Hamlet müəllimlə doğum günü münasibəti ilə əlaqə saxlayıb kiçik müsahibəmi alırdım. Axırıncı iki sualım qalmışdı ki, Hamlet müəllim evdə oturub çay içdiyini və çayının soyduğunu dedi. Bildirdim ki, artıq sualımı bitirirəm. Professor isə həmişəki səmimiliyi və zarafatçılığını işə salıb dedi: "Çayım soyudu. Onda görüm mənə çay tökən olacaqmı?!".
Hamlet İsaxanlını bir daha təbrik edirik və ümid edirik ki, müsahibədən sonra ikinci stəkan çayı süzülüb.

01.03.2013
**Şahanə Rəhimli**

http://modern.az/articles/35316/1/